**ATU-NUN LOKAL ETİK KOMİTƏSİNİN**

**2022-2023-CÜ İL ÜZRƏ HESABATI**

Lokal Etik Komitə(LEK)-ATU-nin bazasında müstəqil orqan olub, klinik tədqiqatların iştirakçıların hüquq və maraqlarına, etik normalarına riayət etməklə aparılmasına kömək edir.

LEK klinik təcrübələrin, dərman vasitələrinin klinik tədqiqatlarının, dissertasiya işləri daxil olmaqla digər tədqiqat işlərinin tibbi-sosial tədqiqinin etik və hüquqi aspektlərinin qiymətləndirilməsini aparır.

LEK 10-№-li əmr əsasında 29.09.2017-ci il tarixində yaradılıb və aşağıdakı qanunlar əsasında fəaliyyət göstərir:

1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 26 iyun 1997, № 360-IQ.
2. "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 28 oktyabr 1999, №726-IГ.
3. Azərbaycan Tibb Universiteti nəzdində Elmi-Tədqiqat Mərkəzinin əsasnaməsi, Bakı, 2002.
4. "Dərman vasitələri haqqında"Azərbaycan Respublikasının Qanunu Bakı, 22 dekabr 2006, № 208-IIIQ.
5. Ümumdünya Tibb Assosiasiyasının Helsinki Bəyannaməsi "İnsanın iştirakı ilə biotibbi tədqiqatlarla məşğul olan həkimlər üçün tövsiyələr", 18-ci Ümumdünya Tibb assosiasiyası tərəfindən qəbul edilmişdir (Finlyandiya, 1964-cü il);
6. UNESCO Etika Bürosunun(UNESCO Ethics Office), Ümumdünya Səhiyyə Təşkilatının (World Health Organization), keyfiyyətli təçrübə üzrə Avropa forumunun (European forum for Good Clinical Practice) rəhbərlik və tövsiyələri;

LEK-nin tərkibi ATU-nin rektoru prof.G.Ç.Gəraybəyli tərəfindən təsdiqlənmiş və 5 həkim, 1 hüquqşünas və 1 ruhani olmaqla 7 nəfərdən ibarətdir.

Komitə ərizəçilərin sənədlərini və materiallarını etik ekspertizaya qəbul edir, onların ekspertizasını aparır və müəyyən edilmiş qaydada qərar çıxarır.

Hesabat ili ərzində etik komitə öz işini aktiv şəkildə davam etdirmişdir. Hesabat dövrü zamanı keçirilmiş 6 iclas çərçivəsində 4 doktorluq, 10 namizədlik alimlik

dərəcəsi almaq üçün 14 elmi işin etik ekspertizası aparılmışdır. Üç iş Tibb Universitetinin əməkdaşlarının iştirak etdiyi ÜST-nın irimiqyaslı layihələri çərçivəsində olmuşdur:

**1.** Ümumdünya Səhiyyə Təşkilatının "Tələbələrin immunizasiya ilə bağlı bilik, bacarıq, münasibət və motivasiya səviyyəsini müəyyən etmək üçün onlayn sorğu" mövzusunda elmi-tədqiqat işinin tibb üzrə elmi araşdırmaların aparılmasının biotibbi etika tələblərinə uyğunluğun müzakirəsi.

**Elmi rəhbər:** Hande Harmancı, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri.

**Elmi məsləhətçi:** ÜST-nin Ölkə Ofisnin Peyvəndlə Qarşısı Alına Bilən Xəstəliklər bölməsinin mütəxəssisi Dr. Sevinc Həsənova

**Əsas tədqiqatçı:** Dr. Kevser Vatansever- ÜST

**2.** Azərbaycan Tibb Universitetinin Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə "Azərbaycan Tibb Universitetinin sonuncu kurs tələbələri, məzunlar və İctimai səhiyyə ixtisasının rezidenləri arasında İctimai Sağlamlıq fənni üzrə səriştələrin özünütəhlili" mövzusunda elmi-klinik tədqiqatının tibb üzrə elmi araşdırmaların aparılmasının biotibbi etika tələblərinə uyğunluğun müzakirəsi.

**Əsas tədqiqatçı:**-Samir Cavadov– kafedra müdiri, dosent

**Digər həm-tədqiqatçılar:** - Samirə Məmmədova - assistent,

- Aydan Qədimli - assistent,

- Muhamməd Bayramov- preparator.

**3.** Ümumdünya Səhiyyə Təşkilatının milli məsləhətçisi Nilufər Məmmədovanın

"Azərbaycan Tibb Universiteti məzunlarının ixtisas seçimi istiqamətləri və seçimə təsir edən amillər" mövzusunda elmi-klinik tədqiqatının tibb üzrə elmi araşdırmaların aparılmasının biotibbi etika tələblərinə uyğunluğun müzakirəsi.

**Əsas tədqiqatçı:** Nilufer Məmmədova (ATU)- Yoluxucu xəstəliklər kafedrasının assistenti

Ekspertizanın aparılması və informasiya verilməsinə sərf olunan orta zaman müddəti 2-3 həftə olmuşdur. Hesabat müddəti ərzində elmi tədqiqatlara cəlb olunmuş iştirakçılara dair ciddi neqativ pozuntular aşkarlanmamışdır.

Hesabat müddəti ərzində normativ sənədlərə yenidən baxış olmamışdır.